# Təhsil, təlim, tərbiyə, yaxud gələcəyimizin təminatı

**Əlibala Zal oğlu Zalov**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*baş müəllimi*
**E-mail:** alibala_zalov@gmail.com

**Rəyçilər:** p.ü.f.d., dos. G.V. Sultanova,
p.ü.f.d., dos. F.M. Allahverdiyeva

**Açar sözlər:** təhsil, elm, ənənə, təlim, valideyn, fəlsəfə, məktəb, tərbiyə
**Ключевые слова:** образование, наука, традиция, обучение, философия, школа, воспитание
**Key words:** education, science, tradition, training, philosophy, school, upbringing

İnsanlar min illərdir, fəlsəfə daşı axtarır. Bu axtarışda ən çox işıq tutanlar filosoflardır. Əlbəttə, cəmiyyət həmişə həm irəliyə, tərəqqiyə, həm də tənəzzülə, geriyə “inkişafa” görə filosofları qınayıb. Həm də maraqlıdır ki, elm yaranandan bu günə qədər lap Aristoteldən, İbn Sinadan, Nəsirəddin Tusidən, İssak Nyutondan, İ. Kantdan və s. bu günə qədər fəlsəfə elmin əvvəlində təyinedici rolunda olub, dünyanın ən məşhur riyaziyyatçıları (Pifaqor və s.), fizikləri (Dekart, Nyuton, Bekon), astronomları (Ptolomey, Kopernik, Bruno, Qaliley və s.), bioloqları (Lamark, Darvin və s.) və qeyriləri həm də filosoflar idi. Şübhəsiz, N. Tusi, İ. Kant, F. Hegel, E. Qalua, M. Lomonosov nə sırf ədəbiyyatçı, nə riyaziyyatçı, nə fizik, nə də pedaqoq deyildilər. Əslində onlar filosof idi. Zənnimizcə, sözün həqiqi mənasında filosoflar həm riyaziyyatçı, astronom, həm də qeyri elmlərin sahibidirlər. Lap alimlərin, elə filosofların dili ilə desək: “Şübhəsiz, bəşər dünyamız təhsil və təlimsiz irəliyə gedə bilməz”.

Dünya təcrübəsindən məlumdur ki, təhsil və təlimi inkişaf etməyən ölkənin vətəndaşı və torpağı qızıldan olsa belə, ondan heç nə çıxmaz. Necə ki, qızıl və qeyri sərvətləri başqaları sahiblərinin əlindən alıb aparır. Şübhəsiz, Azərbaycan xalqının təhsil, təlim və tərbiyə ənənələri çox qədimdir. Və tarixən Azərbaycan pedaqoji fikir tarixində həm filosoflar, həm şair və mütəfəkkirlər, həm də bütövlükdə xalq təfəkkürü müstəsna rol oynayıb. Son zamanlar pedaqoji fikir tariximizə, Azərbaycan məktəb tarixinə, respublikamızda tərbiyə, təlim, təhsil probleminə həsr olunmuş çox qiymətli tədqiqat əsərləri nəşr olunur və yazılır. Bunlar içərisində akad. H.M. Əhmədovun məktəb və pedaqoji fikir tariximizə dair çoxcildliyi, prof. Z.İ. Qaralovun “Tərbiyə" trilogiyası, prof. N.M. Kazımovun “Pedaqogika” dərsliyi, prof. A.N. Abbasovun “Pedaqogika" dərsliyi, prof. F.A. Rüstəmovun Qərb, Şərq və müasir dövrə həsr olunmuş “Pedaqogika" dərslikləri, A.İ. Eminovun “Pedaqogika” dərsliyi, eləcə də dərs vəsaitləri diqqət mərkəzindədir. Bu baxımdan prof. Səlahəddin Xəlilovun həm də bir pedaqoq kimi (praktik pedaqoq kimi) nəşr etdirdiyi “Təhsil. Təlim. Tərbiyə” əsəri diqqətimizi çəkdi.

Bəşəri təcrübə göstərir ki, tərbiyə təhsildən, təlim-tərbiyədən ayrı ola bilməz. Onlar bu və ya digər dərəcədə bir-birini şərtləndirir. Pedaqogika elmi çoxdan təsdiq etmişdir ki, təlimsiz tərbiyə, tərbiyəsiz təlim heçdir. Prof. S. Xəlilov “Təhsil. Təlim. Tərbiyə” əsərində Viktor Hüqodan belə bir sitat gətirmişdir: “Tərbiyə nəfslə, təhsil isə biliklə bağlıdır. İnsan yetkinləşdikcə bu proses bir-birini tamamlayır”. Müəllifin dediyi kimi, təhsilimiz bütövlükdə ölkəmizin fəaliyyətinin tərkib hissəsidir. Əgər biz siyasətimizi, iqtisadiyyatımızı Qərbə, Avropaya inteqrasiya ediriksə, deməli, maarifimiz və təhsilimiz də Avropaya inteqrasiya olunmalıdır.

Şübhəsiz, bu gün Azərbaycan təhsili yeni qurulmur. O hələ ənənəvi sovet təhsil qanunları cazibəsindən xilas ola bilməyib. Yəni həmin təhsil qanunlarının davamı kimi məhduddur. Əgər belədirsə, təhsilimiz hələ uzun zaman mərhələ-mərhələ bir sistemin cazibəsindən digərinin dairəsinə keçməlidir. Yeri gəlmişkən, qeyd edək ki, əgər təhsilimiz milli dəyərlərimizə, ənənəvi keçmişimizə, ərazi və mühitimizə uyğunlaşdırılmasa, tərbiyə və təhsilimizdə müvafiq prinsiplər bərpa olunmasa və ya qorunmasa, milli varlığımızdan söhbət etməyə dəyməz.

Əsərin girişindən məlum olur ki, müəllif ali məktəb müəllimlərimizin mövcud dövrə, dövrün siyasi, iqtisadi və pedaqoji təfəkkürünə köklənmədiyindən narazıdır. O, təhsilin mürəkkəb bir sistem olduğunu qeyd etməklə, valideyn-övlad, usta-şagird, müəllim-tələbə cütlüyünü diqqətə çəkir. Müəllif təliminin qeyri-şüuri dövrə, kortəbii mənimsəməyə, əslində, təbii inkişafın tərkib hissəsinə əsaslandığını deyir. O, təhsili müxtəlif pillələrdən - ibtidai, orta, ali təhsil mərhələlərini qeyd etməklə, bu haqda daha ətraflı düşünməyi vacib hesab edir. Filosof-pedaqoq S. Xəlilovun "Təhsil" kitabında Plutarxdan belə bir iqtibasa rast gəldik: "İnsan təbiətində iki ali məqam var: zəka və nitq. Hər ikisi təhsil vasitəsilə inkişaf etdirilir". Elə kitabın həmin səhifəsində böyük Azərbaycan mütəfəkkiri, şair H. Caviddən də ikinci bir iqtibas gətirilir: "Bir millətin hər halını tədqiq etmək üçün ən doğru meyar, ən kəsdirmə yol o millətin məktəbləridir". Düzü, biz Azərbaycanın müstəqilliyinə qədər, yəni sovet dövründə məktəbin, maarifin, təhsilin dini, elmi-fəlsəfi, marksist-leninçi əsaslarından məlumatlıyıq. Elə həmin ideologiya tərbiyənin, təhsilin sinfi xarakter daşıdığını etiraf edirdi. Bu gün prof. S. Xəlilov təhsilşünaslığın fəlsəfi əsaslarından danışanda məhz dünya pedaqoji təcrübəsinə, həm də özünün yaşadığı sistemin məhək daşına əsaslanaraq yazır: "Təhsil sisteminin neçə əsrlər ərzində özünü təsdiq etmiş müstəqil sosial hadisə olması heç kimdə şübhə doğurmur". Bu sistemin cəmiyyətdə yerinin və özünəməxsus funksiyalarının öyrənilməsi sosial fəlsəfənin və sosiologiyanın predmentinə aiddir.

Təhsil sistemində idarəetmə məsələləri menecmentin sahələrindən biridir. Təhsilin maddi-texniki baza ilə təmin olunması, təhsil müəssisələrinin infrastrukturunun formalaşdırılması və maliyyələşdirilməsi, əslində iqtisadiyyatın predmetinə daxildir. Beləliklə, təhsilin fəlsəfəsi, təhsilin sosiologiyası, təhsilin menecmenti, təhsilin iqtisadiyyatı və s. bu kimi nisbi müstəqil tədqiqat sahələri formalaşır ki, bunlar da müstəqil bir elm olmayaraq, fəlsəfə, sosiologiya, menecment və iqtisadiyyat fənlərinin strukturuna daxildir. Lakin bütün bu tədqiqatlar başqa bir en kəsiyində məhz təhsili ön plana çəkildiyi təqdirdə, müstəqil bir fənnin təhsilşünaslığın tərkib hissələri kimi də nəzərdən keçirilə bilər".

Müəllif dünya pedaqoji sisteminə əsaslanaraq yazır ki, müasir dövrdə hər bir fəaliyyət sahəsində ixtisaslaşmış bilik və peşəkar mövqeyin olması çox vacibdir. Adi şüur səviyyəsində heç bir sahənin optimal idarəsi və təşkili mümkün olmadığı kimi, təhsil sahəsində də belə hallar yolverilməzdir.

Müəllifi yazır ki, bizim ölkədə təhsillə məşğul olan adamları əsasən üç qrupa bölmək olar: birincisi, təhsilin idarə olunmasında iştirak edən adamlar (bunlar mütəxəssis və ya təsadüfi məmurlar da ola bilər); ikincisi, təhsilin müxtəlif pillələrində, müxtəlif fənlər üzrə dərs dəyən müəllimlər; üçüncüsü, tədrisin metodikası, təlim-tərbiyə məsələlərini öyrənən şəxslər-metodistlər. "Təhsil" müəllifi Qərb pedaqoji fikrinin görkəmli nümayəndəsi C. Dyuinin "Demokratiya və təhsil", həmçinin klassik rus pedaqoqu K.D. Uşinskinin "Pedaqoji antropologiya" əsərlərinə əsaslanaraq yazır ki, əgər pedaqogika insanı hərtərəfli tərbiyə etmək istəyirsə, onda onun özünü hərtərəfli öyrənməlidir. Məsələn, müəllif Con Dyuidən çox maraqlı belə bir fikir gətirir: "Təhsilin məqsədi ola bilməz. İnsanların, valideynlərin, pedaqoqların və s. məqsədi olur".

Müəllif isə bu fikirdədir ki, məhz təhsilin məqsədi olur. Ziddiyyətli deyilmi? Sualın cavabı belədir: "Bəli, harada isə, nə vaxt isə təhsil kimi başa düşülən və təhsil adı altında formalaşmış bir ictimai proses pozitiv bir hadisə kimi yaranmış (yaradılmış) və insanların maraqlarının təmin olunmasına xidmət etmişdir. Lakin dünya ancaq insan-təhsil münasibətləri sistemindən ibarət deyil. Cəmiyyətdə başqa dəyərlər sistemi də vardır və insanın maraqları konkret bir ictimai situasiya ilə bağlı, konkret bir bölgədə dəyişə bilər. Təhsil isə beynəlmiləlləşə-beynəlmiləlləşə, milli ictimai gerçəkliyin konkret məzmunundan uzaqlaşa-uzaqlaşa (kiminsə dediyi kimi, qloballaşma elə burdan başlayır) öz məxsusi məzmununu, problematikasını və guya zaman və məkandan asılı olmayan, konkret ictimai mühitdən asılı olmayan hansı isə ali məqsədini formalaşdırır".

Biz bir tərəfdən, təhsil islahatları keçirmək, Avropa təhsil məkanına daxil olmaq, bu sahələrdə Qərb dəyərlərini mənimsəmək təşəbbüsləri göstərir, digər tərəfdən də köhnə sovet pedaqogikasının az qala ətəyindən yapışırıq: "Bütün dünya xalqlarının tarixi göstərir ki, istər hərbi, istər siyasi və ya iqtisadi müstəvidə böhran keçirdikdən sonra yeni inkişaf potensialı əldə etmək, milli gücü səfərbər etmək üçün ən mühüm vasitə insanların şüurunun yenidən yönəldilməsidir ki, bu da ilk növbədə, təhsil sistemindəki islahatlar vasitəsilə həyata keçirilir.

Şübhəsiz, ölkəmizin gələcəyini uğurlu qurmağımız təhsildən asılıdır. Mövcud təhsil sisteminin düzgün qurulması üçün məhz meyarlar sistemi olmalıdır. Bəs gəlin görək, milli təhsil öz-özünə qurulur, yoxsa dünyanın müxtəlif ölkələrindən diqtə ilə inteqrasiya olunur? Zənnimizcə, Azərbaycanda təhsilşünaslıq bir elmi istiqamət kimi özünə əsaslanaraq formalaşmalı və dünya təhsil sisteminin müsbət cəhətlərini əxz eləməlidir. Son zamanlar "müstəqillik" sözü dəbdədir. Biz bilmirik, müəllif bu ifadəni hansı tutumda işlədir. Lakin söhbət ölkənin müstəqil təhsil siyasətindən gedirsə və ümummilli lider Heydər Əliyevin sözləri iqtibas gətirilərsə: "Biz müstəqil dövlət olaraq özümüzün təhsil sistemimizi istədiyimiz kimi qururuq" - müəllifin fikri aydındır. Təhsilin mahiyyətindən danışanda prof. S. Xəlilov sanki demək istəyir ki, təhsil də tərbiyə kimi keçmiş nəslin təcrübəsinin mənimsənilməsi və gələcək nəslə ötürülməsi deməkdir. O, konkret olaraq belə yazır: "Yaşadığı zamanın tələbləri səviyyəsində durmağa hər dəfə sıfırdan başlamaqla deyil, özündən əvvəlki nəsillərin işini davam etdirməyə insan yalnız təhsil sayəsində müyəssər olur". Şübhəsiz, müəllifin yazdığı kimi, təhsil öz səviyyə və yönəmindən asılı olaraq, üç müxtəlif məqsədə xidmət edə bilər.

Əvvəla, bilik təcrübədə tətbiq olunmaq üçündür.

İkincisi, bilik və təcrübə başqalarını öyrətmək üçündür.

Üçüncüsü isə daha yeni bilik və bacarıqlar əldə etmək üçündür.

Müəllif birmənalı olaraq nə Avropada, nə Şərqdə, nə də MDB ölkələrində tətbiq olunmuş təhsil strukturunu qəbul etmir. Şübhəsiz, hər hansı bir ölkənin təhsilini, təhsil qanunlarını məhv etməklə həmin ölkəni döyüşsüz və müharibəsiz məğlub etmək olar. Bu müəllifin qənaətidir, onun "Təhsil strateji sahədir" deməsi də elə bunu təsdiq edir.

Müəllif "Təhsil qanununun dəyişdirilməsi zərurəti" bölümündə yazır: "Qanun ancaq ciddi keyfiyyət yeniləşməsi tələb edərkən dəyişdirilə bilər". Biz oxucu olaraq sual edirik: "Bu, belədirmi?" Növbəti bölümdə müəllif "Biz hamımız o quyudan su içmişik" deyimilə orta təhsil və onun strukturunu şərh edir. Burada ibtidai, natamam orta və orta təhsillin strukturu açıqlanır.

Elmin məqsədi müəllifin dediyi kimi, insanın intellektual dünyasını zənginləşdirmək, onu daha məlumatlı, daha bilikli etmək və bu biliyin qüvvəyə çevrilməsi sayəsində onun imkanlarını artırmaqdır. Müəllif müdriklərin fikirlərinə söykənərək elmi-texniki tərəqqini, onun hüdudlarını üfüqlərə bənzərdir. Axı üfüqlərə nə qədər yaxınlaşsan, üfüq o qədər uzaq olur.

Müəllif çox maraqlı bir sual qoyur: "Doğrudanmı, elmi tərəqqinin həddi-hüdudu yoxdur?". Elə buradaca müəllif böyük Azərbaycan şairi S. Vurğundan iqtibas gətirir: "Qalib gələcəkmi cahanda kamal?". Bu sualın cavabını müəllif belə verir: "Bir dəfə A. Enşteyndən Üçüncü Dünya Müharibəsi haqqında nə düşündüyümü soruşurlar. O isə Üçüncü Dünya Müharibəsi haqqında heç nə deməyərək, Dördüncü Dünya Müharibəsinin ox və kamanla olacağını söyləyir". Lakin A. Eynşteynin bu ehtimalı hərbi texnikanın 40 il bundan əvvəlki səviyyəsi üçün doğru sayıla bilər. Müasir dövrdə dağıdıcı və kimyəvi qırğın silahlarının gücü elə bir həddə çatmışdır ki, müharibədən sonra harada isə Afrika cəngəlliklərində adamlar qalacağına və bəşəriyyətin keçdiyi bütün tarixi yolun təzədən təkrar olunacağına da ümid yoxdur. Qarşıda Yer üzərində həyatın ümumiyyətlə, qalıb-qalmaması məsələsi durur.

Elm və onun inkişaf yolu haqqında danışarkən müəllif elmi biliyin insanların ilk dəfə "nəyə görə?" "hansı səbəbdən?" qoyduğu sualdan başladığını göstərir. Əslində elm və bilik sistemləri yalnız müəyyən ümumi sahədə kəsişir, qalan sahələrdə isə bir-birindən fərqli məzmunlara malikdir. Bu ümumi sahə-elmi bilikdir. Elmi bilik "elm" sisteminə daxildir. "Bilik" anlayışı elmi bilikdən başqa, əməli biliyi də əhatə edir ki, sonuncu "elm" sisteminə daxil deyildir. Yaxud da elm anlayışının əhatə etdiyi maddi tərəflər (elmi-tədqiqat institutları, laboratoriyalar, "elmin texnikası və s.") və yaradıcılıq axtarışları "bilik" sisteminə daxil deyil.

Hələ XVIII əsrdə Volterlə Jan Jak Russo arasındakı mübahisələr həmin məsələyə klassik nümunə ola bilər. Prof. S. Xəlilovun "Təhsil" əsərindəki növbəti paraqraf "Təhsil müəssisəsində elmi fəaliyyət" adlanır. Burada mahiyyət ondan ibarətdir ki, təhsil müəssisəsində yaradıcı potensial iştirak etsin. Şübhəsiz, Eynşteynin və ya N. Borun dərs dediyi ali məktəb filankəslərin dərs dediyi ali məktəblərdən fərqlidir. Elm öz funksiyasına görə iki qola ayrılır: fundamental və tətbiqi. Birincidə məqsəd gerçəklik haqqında yeni biliklər əldə etmək, həqiqətə daha çox yaxınlaşmaqdır. İkincidə isə məqsəd alınmış bilikləri gerçəkliyə tətbiq etmək yeni texnoloji sistemlər yaratmaqdır.

Biz yaxşı bilirik ki, başqasının kəşf etdiyi bilik elə bil ki, yəhərli, yüyənli at kimi qaça-qaça gəlib hamının qarşısından keçir. Keçir, lakin dayanmır. Ata minib onu istədiyin səmtə sürmək, ona sahib olmaq üçün də xüsusi məharət lazımdır. Bir yerdə dayanan adam qaçan ata minə bilməz. Gərək sən özün də hərəkətdə olasan. Elə bil ki, elm adamı üzünü tətbiqçilərə tutub deyir: "Məndən bərəkət, sizdən hərəkət". Elmin tətbiqi isə olduqca müxtəlif sahələri əhatə edir. Elə buradaca qeyd edim, kim belə hesab edirsə ki, elmin həyatla əlaqəsi yalnız texnika vasitəsilə mümkündür, böyük səhv edir. Həyat yalnız istehsalatdan ibarət deyil. Başqa sözlə, maddi istehsal ictimai həyatın yalnız cüzi bir hissəsini təşkil edir. Düzdür, maddi istehsalın rolu böyükdür. Lakin mənəvi amillərin getdikcə daha çox dərəcədə məhsuldar qüvvəyə çevrildiyi bir şəraitdə ictimai həyatın yalnız mənəvi və maddi komponentləri arasındakı nisbətdə ciddi dəyişmələr baş verməkdədir. Zənn edirik ki, bu peşəkar bir pedaqoqun fikridir. Ali təhsildən sonrakı təhsil və gənclərin elmi tədqiqatla bağlı ciddi dönüşünə nail olmalıyıq. Bu məsələdə gecikmək olmaz. Lakin S. Xəlilovun dediyi kimi, tələsikliyə də yol vermək olmaz.

**Məqalənin aktuallığı.** Məqalədə təlimlə tərbiyənin bağlılığı bir-birini şərtləndirsə də, təlimin təyinediciliyi, cəmiyyəti öz arxasınca aparacağı təqdirdə öz həqiqi mahiyyətinə qovuşacağı problemin aktuallığından irəli gəlir. Bu problem eyni zamanda, qlobal səviyyədə diqqətə çəkilir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə təhsil və təlimin inkişaf etdirilməsi, tərbiyə işinin müasir tələblər səviyyəsində təşkili ilə bağlı respublikamızın, eləcə də xarici ölkə alimlərinin fikirləri müxtəlif nümunələrlə nəzərə çatdırılır, problemin həlli vacibliyi konkret faktlarla əsaslandırılır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalə ali, orta ixtisas və orta ümumtəhsil məktəblərinin müəllimləri, eləcə də təhsil problemləri ilə məşğul olan tədqiqatçılar üçün nəzərdə tutulmuşdur.

## Ədəbiyyat

1. S. Xəlilov. Təhsil. Təlim. Tərbiyə. Bakı, 2005.
2. Z.İ. Qaralov. Tərbiyə (3 cilddə). Bakı, 2003.
3. N.M. Kazımov. Məktəb pedaqogikası. Bakı, 2005.
4. N.M. Kazımov. Ali məktəb pedaqogikası. Bakı, 2006.
5. A.N. Abbasov. Pedaqogika. Bakı: Mütərcim, 2015.
6. F.A. Rüstəmov, Ə.X. Paşayev. Pedaqogika. Bakı, 2010.
7. A.İ. Eminov. Pedaqogika. Bakı, 2011.

**А.З. Залов**

## Образование, обучение, воспитание или гарантия нашего будущего

### Резюме

В статье делается упор на организацию обучения. При этом отражаются модели интеграции традиционных моделей образования в современные. В статье широко обоснован учет национальных особенностей учащихся в образовании.

**A.Z. Zalov**

## Education, training, upbringing, or guarantee of our future

### Summary

The article emphasizes the organization of education. At the same time, models of integration from traditional to modern models of education are reflected. The article also takes into account the national characteristics of students in education.

**Redaksiyaya daxil olub:** 05.02.2021